UOT 331.5 (479.24)

# Azərbaycanda 2000-2010-cu illərdə məşğulluq səviyyəsinin yüksəldilməsi istiqamətində fəaliyyətlərin təhlili



**Eyyubov Kamran Yusif oğlu***
Bakı Dövlət Universitetinin dissertant

## Xülasə

*Tədqiqatın məqsədi* - 2000-2010-cu illər ərzində Azərbaycanda mövcud olan işsizlik səviyyələrinin azaldılması və məşğulluq səviyyələrinin artırılması sahəsində görülən işlərin təhlili.

*Tədqiqatın metodologiyası* - ümumnəzəri elmi tədqiqat metodları: sistemli yanaşma və müqayisəli təhlil.

*Tədqiqatın nəticələri* - məşğulluğun artırılması üçün ilk əvvəl xarici kapital ölkə iqtisadiyyatına cəlb edilsə də sonralar yerli sahibkarlığın inkişafı ölkənin iqtisadi siyasətində daha önəmli rola malik olmuşdur. Bununla yanaşı, ölkənin müxtəlif yerlərində məşğulluğun səviyyəsinin artırılması üçün əmək yarmarkaları, ixtisasartırma kursları və treninqlər təşkil edilmişdir.

*Tədqiqatın məhdudiyyətləri* - iqtisadi sahələr üzrə mövcud olan məşğulluq səviyyələrinin statistik baxımdan daha da detallı analizi tələb olunur.

*Tədqiqatın praktiki əhəmiyyəti* - məşğulluğa ayrı-ayrı dövrlərdə təsir etmiş iqtisadi proseslərin öyrənilməsi, gələcəkdə məşğulluğun düzgün idarə edilməsində vacib metodoloji əsas kimi istifadə imkanlarını ortaya çıxarır.

*Tədqiqatın orijinallığı və elmi yeniliyi* - Azərbaycan Respublikasında 2000-2010-cu illər ərzində məşğulluq səviyyəsinin artırılması və işsizlik səviyyəsinin azaldılmasına müxtəlif Dövlət Proqramlarının təsiri tədqiq edilmişdir.

**Açar sözlər:** *məşğulluq, əmək bazarı, əmək siyasəti, işsizlik, xarici investisiyalar.*

## 1. Giriş

2011-ci ilin 18 oktyabrında Azərbaycan Respublikası müstəqilliyinin 20-ci illiyini qeyd etdi. Bu tarixi hadisə bir xalqın taleyində əlamətdar bir gün olsa da eyni za-

* Bakı şəhəri, AZ-1148, Z.Xəlilov küç. 23.
kamran.eyyubov@bsu.az



PDF processed with CutePDF evaluation edition www.CutePDF.com

manda bir hesabat tarixidir. Bu tarixin əhəmiyyəti özünü xalqın siyasi, iqtisadi, sosial, mədəni, elmi və ümumiyyətlə inkişaf sahələri üzrə hesabat xarakteri daşıyırdı. Azərbaycan xalqı və Azərbaycan dövlətçiliyi bu 20 il ərzində çoxlu çətinliklər görmüş, bir çox problemləri həll edə bilmiş və eyni zamanda yuxarıda göstərdiyimiz sahələr üzrə sürətli inkişafa nail olmuşdur. Azərbaycandakı problemlərin başında Dağlıq Qarabağ, Ermənistan Azərbaycan münaqişəsi durmuşdur ki, bu da özünü bir çox sahələrdə biruzə vermişdir. Bu münaqişəyə baxmayaraq Azərbaycan hökuməti başda Heydər Əliyev olmaqla və onun layiqli davamçısı Prezident İlham Əliyevin yürütdüyü siyasət nəticəsində dünyada özünə məxsus olan inkişafa nail olmuşdur.

Yuxarıda göstərdiyimiz sahələr arasında iqtisadi inkişafın xüsusi yeri və çəkisi vardır. Onu qeyd etmək lazımdır ki, müstəqilliyin ilk bir neçə ili Dağlıq Qarabağ problemi, sosial-iqtisadi tənəzzül, siyasi xərc-mərclik və ölkənin yenidən bərpa etdiyi müstəqillik ölkə iqtisadiyyatını bu ağır problemlərlə üzləşdirmişdir. Buna baxmayaraq Heydər Əliyevin rəhbərliyi altında 20 sentyabr 1994-cü ildə imzalanmış "Əsrin müqaviləsi" neft sazişi ilə birlikdə Azərbaycan iqtisadiyyatı özünün yeni inkişaf mərhələsinə qədəm qoymuşdur. Bu sazişin önəmi hələ bir çox nəsillər tərəfindən layiqincə qiymətləndiriləcəkdir. Heydər Əliyevin yürütdüyü iqtisadi siyasətin davamı olaraq prezident İlham Əliyevin rəhbərliyi altında Bakı-Tbilisi-Ceyhan neft kəməri tamamlandı, Bakı-Tbilisi-Ərzurum qaz kəməri istifadəyə verildi, Bakı-Tbilisi-Qars dəmir yolu xəttinin tikilməsinə başlandı [8, s. 215], Azərbaycan dövlətinin NABUCCO qaz kəmərində iştirakının iqtisadi əhəmiyyəti önə çıxdı [9], Azərbaycan regional iqtisadi qüvvəyə çevrildi və bütün bunların nəticəsi olaraq dünyanın iqtisadi və siyasi qüvvələri Azərbaycana və onun iqtisadiyyatına diqqət yetirməyə və buradakı fəaliyyətlərini önəmli dərəcədə artırmağa başladılar. Azərbaycanın bu iqtisadi irəliləyişi özünü iqtisadiyyatın özülü olan əmək iqtisadiyyatında da mühüm nəticələr göstərdi. Yuxarıda qeyd etdiyimiz hər bir iqtisadi fəaliyyət yeni iş yerləri, yeni perspektivlər, əhalinin sosial rifahı, əhalinin məşğulluğu və qeyri-qanuni fəaliyyətlərin azalması demək idi. 2003-cü ildə keçirilən seçkilər zamanı Yeni Azərbaycan Partiyasının o vaxtki namizədi İlham Əliyev öz seçki platformasında Azərbaycanda 5 il ərzində 600 min yeni iş yeri açacağını vədd verdi və bu sözünə sadiq çıxdı. Elə bu baxımdan da, Azərbaycan Respublikasında 2000-2010-cu illər ərzində mövcud olan məşğulluq və işsizlik səviyyələrini analiz etmək və Azərbaycan hökumətinin bu istiqamətlərdə gördüyü işləri təhlil etmək çox böyük əhəmiyyətə malikdir. Göstərdiyimiz onilliyi Azərbaycan iqtisadiyyatında "Qızıl dövr" kimi qeyd etmək mümkündür. Bu onillik ərzində mövcud olan iqtisadi inkişaf yüz illər boyu qeydə alınmamışdır.

## 2. Postsovet ölkələrində əmək bazarlarının inkişaf strategiyası

Keçmiş sovet ölkələrində mövcud olan əmək bazarı çox dar çərçivəyə malik idi. Texnologiyaların inkişafı ilə bu ölkələrdə formalaşan əmək qüvvəsinin nəzəri cəhət-

dən bir çox problemlərlə üzləşəcəyi qeyd oluna bilər. Bu ölkələrdə mövcud olan əmək qüvvələri əsasən aqrar sahələrdə və ağır senayədə işləyirdilər. XX əsrin 80-cı illərində başlayaraq dünya iqtisadiyyatı əsasən bankçılıq, xidmət və müasir texnologiyalara üz tutdu. İqtisadiyyatın belə inkişafı dünya ölkələrinin bir-biriləri ilə əməkdaşlıqda da özünü göstərdi. Yuxarıda göstərdiyimiz dünya iqtisadiyyatının yeni strukturu özünü keçmiş SSRİ ölkələrində, eləcə də Azərbaycanda göstərdi. Sovetlər Birliyinin dağılması ilə Azərbaycanda ağır sənaye öz iqtisadi çəkisini itirməyə başladı, əvəzində bank sektoru, turizm, yüngül sənaye və yeyinti sahələri inkişaf etməyə başladı. Bu inkişafla birlikdə əmək bazarının yenidən formalaşmasına da ehtiyac yarandı. Belə ki, ağır sənaye sahəsində işləyən fəhlələrin birdən birə bank sektorunda fəaliyyət göstərməkləri elə də asan prosess olmayacaq idi. Burada əmək qüvvəsinin yeni xüsusiyyətlərə və keyfiyyətlərə malik olması üçün ixtisasartırma kurslarından, treninqlərdən, konfranslardan və digər bu kimi proqramlardan keçmələri öz vacibliyini göstərmişdir. Belə proqramlar nəinki keçmiş sovet ölkələrində, hətta Şərqi Avropanın keçmiş kommunist və yeni demokratik ölkələrində də həyata keçirilmişdir. Aktiv əmək bazarı proqramları (*ALMP*) bu ölkələrdə bir çox hallarda istifadə edilmişdir [7, s. 424]. Bu proqramlardan ən çox yararlanan ölkələrin başında Çexiya Respublikası durur. Çexlər bu proqram nəticəsində əmək qüvvəsinin keyfiyyətlərini tez bir zamanda transformasiya edə bilmiş və işsizliyin səviyyəsini illər ərzində eyni ilə saxlamağa müəssər olmuşdur. ALMP-lər kommunist təfəkkürlü sosialist əmək qüvvəsinin qloballaşan və tezliklə dəyişən iqtisadiyyatda özünə lazımi yer tapa bilməsi üçün mühüm instrumentə çevrilmişdir.

## 3. Azərbaycan Respublikasında əmək bazarının inkişafında müxtəlif iqtisadi amillərin rolu

Azərbaycan Respublikasında əmək qüvvəsinin formalaşmasında da eyni struktur və formalardan istifadə edilmişdir. Bununla yanaşı ölkə əhalisinin tez bir zamanda iş yerləri tapa bilməsi üçün Əmək və Sosial Müdafiə və İqtisadi İnkişaf Nazirlikləri tərəfindən əmək yarmarkaları təşkil olunmuş və iş yeri sahibkarları ilə iş axtaran şəxslərin tez bir zamanda bir biriləri ilə iqtisadi fəaliyyətə başlamaları üçün münbit şərait yaratmışdır. Bu əmək yarmarkaları bir çox şəhərlərdə, o cümlədən Bakıda, Gəncədə, Sumqayıtda, Mingəçevirdə, Naxçıvanda, Şirvanda və digər şəhərlərdə həyata keçirilmişdir. Keçirilən əmək yarmarkalarının nəticəsində əmək qüvvəsinin intensiv şəkildə axtarışda ola bilməsi və əmək qüvvəsinin dövranının yüksək sürətə malik olması mümkün olmuşdur. Eyni zamanda onu da qeyd etmək lazımdır ki, əmək yarmarkaları ixtisasartırma kursları kimi də fəaliyyət göstərmişdir. Bu yarmarkalar bazarda mövcud olan işlərin siyahısını və əmək qabiliyyətli keyfiyyətlərə olan tələbatı bilmək üçün çox böyük məlumat bazası idi. İşsiz əhalinin iş

yerinə malik ola bilməsi üçün öz üzərində inkişaf etməsi və müasir tələblərə uyğun olaraq yeni keyfiyyətləri əldə edərək özünün əmək fəaliyyətini təşkil etməsi mümkün olmuşdur. Bu əmək yarmarkalarının əmək bazarının formalaşmasında və onun inkişafındakı rolu çox mühüm önəm kəsb edir.

Azərbaycan hökumətinin işsizliyin azaldılması və məşğulluğun artırılması sahəsində gördükləri işlər təkçə əmək yarmarkaları ilə kifayətlənmir. Prezident İlham Əliyevin 2003-cü ildən yürütdüyü iqtisadi siyasətin mühüm hissələrindən biri Respublika ərazisində sahibkarlığın inkişaf etdirilməsi prioritet məsələlərdən biri kimi önə çıxmışdır. Dünya ölkələrinin iqtisadiyyatında kapitalist ideologiyasının əsasında duran sahibkarlıq fəaliyyətinin inkişafı get-gedə öz önəmini göstərməyə başlamışdır. Elə bu baxımdan da, prezident İlham Əliyevin sahibkarlığa belə böyük önəm verməsi təsadüfi deyildir. Azərbaycanda sahibkarlığa nəinki iri səviyyədə eyni zamanda kiçik və orta səviyyədə də mühüm önəm verilmişdir.

Azərbaycan xalqının milli lideri Heydər Əliyevin prezidentlik fəaliyyəti zamanı yerli və xarici sahibkarlarla çox mühüm işlər görülmüşdür. Təkcə onu demək kifayətdir ki, "Əsrin müqaviləsi"nin imzalanması zamanı yerli və xarici şirkətlərin iştirakı, onların bu iqtisadi fəaliyyətə investor kimi cəlb edilmələri nəinki neft senayesinin inkişafına töhvə vermişdir, hətta digər iqtisadi sahələrin inkişafında da öz önəmini göstərmişdir [2]. Sahibkarlığın inkişafı yeni iş yerlərinin açılmasına gətirib çıxarır. Yeni iş yerlərinin açılması isə öz növbəsində dövlət qarşısında duran sosial, iqtisadi və mənəvi problemlərin azaldılması üçün çox böyük rola malikdir. Sahibkarlığın inkişafı xüsusi ilə də kiçik və orta səviyyədə dövlət üzərində olan əhalinin əmək yükünü azaltmaqda çox vacibdir.

Azərbaycan hökuməti sahibkarlığın inkişafı üçün sahibkarlara dəstək fondunu yaratmış və bu fond vasitəsi ilə ölkə ərazisində yeni-yeni iş fəaliyyətlərinin yaradılmasına böyük təkan vermişdir. Onu da qeyd etmək vacibdir ki, bu fəaliyyətlər struktur və forma baxımından regionlar üzrə fərqlənirdi. Azərbaycanın iqtisadi rayonları üzrə ixtisaslaşmış iqtisadi fəaliyyət növlərinə görə sahibkarlıqda özünün inkişaf vektorunu müəyyən etmişdir. Məsələn, Quba-Xaçmaz iqtisadi rayonunda əgər turizm və meyvəçilik inkişaf etmişdirsə [5, s. 32], Gəncə-Qazax iqtisadi rayonunda ağır senaye sahələrindən olan metallurgiya, hazır metal məmulatlarının və plastik kütlə məmulatlarının istehsalı [4, s. 30] sahibkarlığın inkişafında önəmli rola malik olmuşdur. Elə bu baxımdan da, regionlar üzrə sahibkarlığın formalarının sahələr üzrə şaxələnməsi nəzərlərdən qaçmamışdır. Azərbaycan dövləti və onun hakimiyyəti XX əsrin ilk onilliyində regionlar üzrə sahibkarlığın ixtisaslaşması istiqamətində çox böyük işlər görmüşdür [1]. Bu ixtisaslaşma əmək bazarının formalaşması baxımından da və onun iqtisadi səmərəliliyinin artırılması üçün çox böyük önəmə malikdir. Burada həm kadr potensialının ixtisaslaşması, həm gələcək əmək fəaliyyətində öncədən perspektivlərin cızılması, həm də iqtisadi fəaliyyətdə əməyin səmərəli şəkildə istifadəsi üçün lazimi şərait yaradır.

## 4. Əmək bazarının müqayisəli təhlili

Yuxarıda qeyd olunanlarla yanaşı onu da qeyd etmək lazımdır ki, Azərbaycan hakimiyyəti məşğulluq səviyyəsinin artırılması və işsizlik səviyyəsinin azaldılması üçün gördüyü işlər zamanı bir çox dünya ölkələrində olduğu kimi dövlət sektorunda süni şəkildə iş yerlərinin yaradılması mexanizmindən istifadə etməmişdir. Bu addım çox uzaq görən səmərəli və gələcək nəsillərin üzləşə biləcəyi problemlərdən uzaq qalması üçün çox əhəmiyyətlidir. Son bir neçə il ərzində Avropa ölkələrində formalaşmış iqtisadi böhranın əsasında dövlət sektorunun normadan artıq iş yerləri ilə təchiz edilməsi problemi durmuşdur. Təkcə Yunanıstan, Portuqaliya, və İtaliya dövlətində 2011-2012-ci illərdə üzə çıxmış bu problem dövlət sektorunun həddindən artıq iş yerləri ilə yüklənməsi zamanı baş verə biləcək sosial və siyasi problemləri dünya arenasına çıxarmışdır [10]. Elə bu səbəbdən də prezident İlham Əliyevin yürütdüyü əmək siyasəti çox böyük diqqətə və qiymətə layiqdir. Bu əmək siyasəti dövlət müəssisələrində iş yerlərinin sayını artırmağın yolunu süni şəkildə işçilərin kəmiyyətini artırmaqdan keçmirdi, əksinə iş yerlərinin sayının texnologiya və istehsal faktorlarının təkmilləşdirilməsi ilə yaranan yeni işlərə əsasən mümkün idi. Buna misal olaraq Elektron Hökumət Proqramını göstərmək olar. Bu proqram dövlət müəssisələrinin fəaliyyətini asanlaşdırmaq və ölkə əhalisinin müxtəlif icra strukturlarından səmərəli şəkildə istifadəsi məqsədi ilə yaradılmışdısa da, bu proqram eyni zamanda dövlət müəssisələrindəki əməyin strukturunu çox effektiv formaya salmaqla yanaşı, eyni zamanda yeni və müasir tələblərə uyğun olan iş yerləri ilə ölkə əhalisini təchiz etmişdir. İqtisadi baxımdan bu fenomen əməyin səmərəli şəkildə istifadəsi üçün çox gözəl nümunədir. Bu nümunə dövlət tərəfindən təşkil edilmiş iş strukturunun düzgün təşkil olunmasında və ümumiyyətlə əməyin iqtisadiyyatının öyrənilməsində özünə məxsus yerə malikdir.

Azərbaycan Respublikasında XX əsrin ilk onilliyində qeydə alınmış dünya səviyyəsində görülməmiş məşğulluğun artımı eyni zamanda "Azərbaycan Respublikası regionlarının sosial-iqtisadi inkişafı Dövlət Proqramı (2004-2008-ci illər)" və "Azərbaycan Respublikası regionlarının 2009-2013-cü illərdə sosial-iqtisadi inkişafı Dövlət Proqramı"-nın nəticəsində mümkün olmuşdur. Bu proqramlar regionların sosial-iqtisadi inkişafına müsbət yöndə bilavasitə təsir etmişdirlər. Regionların iqtisadi inkişafı yeni iş perspektivləri deməkdir. Bu da öz növbəsində məşğulluğun artırılması və işsizliyin azaldılmasında çox mühüm önəmə malikdir. Azərbaycanın regionlarının təbii resurslar ilə zənginliyi fərqlənsə də, göstərilən Dövlət Proqramları sosial ədavətin, bərabərliyin və rifahın ölkə ərazisində mövcud olması üçün münbit şərait yaradırdı.

Bu proqramlar eyni zamanda regionların müxtəlif iqtisadi sahələr üzrə ixtisaslaşmasına köməklik göstərirdi. Buna misal olaraq Quba-Xaçmaz iqtisadi rayonunda formalaşmış və sürətlə inkişaf edən turizm sektorunu [5, s. 35] və ya Abşeron iqtisadi

rayonunda mühüm şəkildə inkişaf edən yüngül və ağır sənayeni göstərmək olar [3, s. 57]. Ölkə ərazisindəki iqtisadi rayonların iqtisadi sahələr üzrə ixtisaslaşması həmin rayonlarda yaşayan əhalinin eyni zamanda göstərilən iqtisadi sahələrdə ixtisaslaşması əmək qüvvəsinin daha keyfiyyətli, səmərəli və dünya səviyyəsində qabiliyyətlərə malik olması deməkdir. Burada artıq ölkə ərazisində formalaşmış dünya səviyyəli kadr potensialının əmələ gəlməsi demək idi. Bu hadisə nəinki ölkə ərazisində mövcud olan məşğulluq tendensiyaları baxımından müsbət bir hal idi, eyni zamanda məşğulluğun keyfiyyəti baxımından çox önəmli idi.

## 5. Nəticə

Yuxarıda qeyd olunanları nəzərə alsaq, 2000-2010-cu illərdə Azərbaycan Respublikasında məşğulluğun önəmli dərəcədə artdığını görə bilərik. Məşğulluğun artması işsizliyin azalması demək idi. İşsizlik qolobal bir problem olub ölkənin ən başlıca sosial və siyasi faktorlarındandır. Elə bu baxımdan da, işsizlik probleminin həlli və məşğulluğun artırılması öz vacibliyini bir daha sübut edir. İşsizlik səviyyəsi yüksək olan ölkələr çox zaman siyasi və sosial problemlərlə qarşılaşırlar. Bu problemlərin həlli elə də asan olmur, çox uzun vaxt müddəti tələb edir. Başda Prezident İlham Əliyev olmaqla Azərbaycan hökumətinin məşğulluğun artırılması və işsizliyin azaldılması sahəsində gördükləri işlər əvəzsizdir.

Ölkə ərazisində mövcud olan yüksək məşğulluq səviyyəsi ilk əvvəl əsası Azərbaycan xalqının ümumilli lideri Heydər Əliyev tərəfindən qoyulan xarici investisiyaların ölkəyə cəlbi nəticəsində mümkün idisə [6], sonralar məqsədyönlü şəkildə yerli sahibkarlığın önəminin artırılmasına görə baş tutmuşdur. Eyni zamanda onu da qeyd etmək lazımdır ki, yuxarıda göstərilən iki faktor ilə yanaşı Azərbaycan hököməti əmək qüvvəsinin qabiliyyətini artırmaq məqsədi ilə müxtəlif treninq və ixtisasartırma kursları keçirmiş və əmək qüvvəsinin daha asan iş tapa bilməsi üçün əmək yarmarkaları təşkil etmişdir. Qeyd olunanlar ilə yanaşı, məşğulluq sahəsində olan inkişafın baris faktorlarından biri kimi də “Regionların sosial-iqtisadi inkişafı Dövlət Proqramları” çıxış etmişdir. Bu proqramlar ölkənin bütün regionlarında məşğulluğun yüksək səviyyədə olması üçün münbit şərait yaratmışdır. Ümumilikdə bu proqramların məşğulluğun yüksək səviyyədə olması üçün göstərdikləri təsir danılmazdır.

Dövlət Proqramlarının nəticəsində əmək bazarının sabit şəkildə yeni-yeni iş yerləri ilə təmin edilməsi mümkün olmuşdur. Azərbaycan Respublikasında mövcud olan əmək bazarının XX əsrin ilk onilliyindəki strukturuna baxsaq, burada məşğulluğun sürətlə artdığını, işsizliyin azaldığını və ümumiyyətlə, əmək bazarının müsbət inkişafını görərik.

### Ədəbiyyat siyahısı


1. Əlirzayeva Ə. Azərbaycanda sahibkarlığın inkişafı problemləri və həlli yolları: nəzəriyyə və təcrübə. Bakı: 2000, 670 s.
2. Heydər Əliyev Fondu tərəfindən yaradılmış Azərbaycan haqqında rəsmi sayt, http://www.azerbaijan.az/_Economy/_OilStrategy/oilStrategy_04_a.html
3. İqtisadi İslahatlar Elmi Tədqiqat İnstitutu. Azərbaycan Respublikası İqtisadi İnkişaf Nazirliyi. Abşeron İqtisadi Rayonunun pasportu. Bakı: 2011, <http://www.ier.az>, 85 s.
4. İqtisadi İslahatlar Elmi Tədqiqat İnstitutu. Azərbaycan Respublikası İqtisadi İnkişaf Nazirliyi. Gəncə-Qazax İqtisadi Rayonunun pasportu. Bakı: 2011, <http://www.ier.az>, 60s.
5. İqtisadi İslahatlar Elmi Tədqiqat İnstitutu. Azərbaycan Respublikası İqtisadi İnkişaf Nazirliyi. Quba-Xaçmaz İqtisadi Rayonunun pasportu. Bakı 2011. <http://www.ier.az>. 60s.
6. Abrahams L. and Dragadze S. Azerbaijan (ch. 1) // In: Investing in the Caspian Sea region: opportunity and risk (ed), London: Cartermill, 1996.
7. Arranz J.M. and Muro J. Recurrent unemployment, welfare benefits and heterogeneity // International Review of Applied Economics, 2004, vol. 18, no. 4, pp. 423-441.
8. Lussac S. The Baku-Tbilisi-Kars Railroad and its Geopolitical Implications for the South Caucasus // Caucasian Review of International Affairs, autumn 2008, vol. 2, issue 4, pp. 212-224.
9. Socor V. Sourcing the Nabucco Pipeline to Prevail Against South Stream // Eurasia Daily Monitor, 2008, vol. 5, issue 25, no. 3, pp. 105-108.
10. Verick S. Who is Hit Hardest During a Financial Crisis? The Vulnerability of Young Men and Women to Unemployment in an Economic Downturn // IZA Discussion Paper No. 4359. Available at SSRN: http://ssrn.com/abstract=14555213



**Эйюбов Кямран Юсиф оглы**

диссертант, Бакинский Государственный Университет


## Анализ деятельности, направленной на повышение уровня занятости в Азербайджане в течение 2000-2010 гг.

### Аннотация


*Цель исследования* - объективный анализ мер, принятых в направлении повышения уровня занятости и снижения уровня безработицы в Азербайджане в течение 2000-2010 гг.

*Методология исследования* - системный подход и сравнительный анализ.

*Результаты исследования* - если на начальном этапе для увеличения уровня занятости населения в экономику был привлечен иностранный капитал, в последующие годы развитие местного предпринимательства сыграло более важную роль в экономической политике страны. Наряду с этим в регионах страны проводились ярмарки труда, курсы профессиональной подготовки и тренинги.

*Ограничения исследования* - требуется более детальный анализ существующих статистических данных об уровне занятости по экономическим отраслям.

*Практическая значимость исследования* - изучение экономических процессов, влияющих на уровень занятости населения в различные периоды, в будущем предоставляет хорошую возможность для правильного управления занятостью как важная методологическая основа.

*Оригинальность и научная новизна исследования* - была исследована роль Государственных Программ, направленных на повышение уровня занятости и снижение уровня безработицы в Азербайджанской Республике в течение 2000-2010 гг.

**Ключевые слова:** *занятость, рынок труда, политика труда, безработица, иностранные инвестиции.*

**Eyyubov Kamran Yusif oglu**
PhD student in economics, Baku State University

## Analysis of the measures taken in Azerbaijan aimed at increasing employment levels in 2000-2010

### Abstract

*Purpose* - measures taken in Azerbaijan between 2000 and 2010 in order to overcome unemployment and to increase employment levels are analyzed objectively.

*Methodology* - systemic approach and comparative analysis based on theoretical framework or scientific research.

*Findings* - successful Labor Policies is analyzed scientifically, if at first foreign capital was used in order to increase employment; later government has started to support private ownership for the specified purpose. At the same time, labor fairs, high-skilled courses and trainings were organized in different parts of the country with the intention of increasing employment levels.

*Research limitations* - more detailed analysis of the statistical data on employment of different economic fields is necessary.

*Practical limitations* - researching economic processes, which affect the employment levels in different periods, gives opportunities for right interpretation of the methodological base of the employment.

*Originality* - the effect of the State Programs on the unemployment and employment levels in the Republic of Azerbaijan between 2000 and 2010 was researched.

**Keywords:** *employment, labor market, labor policies, unemployment, foreign investments.*

**JEL Classification Codes:** E2, E24, J08, J21

Məqalə redaksiyaya daxil olmuşdur: 10.02.2012.
Təkrar işləməyə göndərilmişdir: 16.02.2012.
Çapa qəbul olunmuşdur: 22.04.2012.